

"Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var".

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 27 iyul 2022-ci il №57 (2668) https://mod.gov.az Qiyməti 30 qəpik


## Prezidentin Mətbuat Xidmətinin məlumatı

İyulun 25-də Amerika Birləşmiş Ştatlarının Dövlət katibi Antoni Blinken Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

Dövlət katibi Antoni Blinken ABŞ-ın Ermənistan ilə Azərbaycan arasında münasibətlərin normallaşdırılmasını dəstəklədiyini qeyd edərək, Tbilisidə iki ölkənin xarici işlər nazirlərinin görüşünü və birbaşa dialoqunu müsbət qiymətləndirdiyini bildirdi.

Prezident İlham Əliyev Tbilisidə Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin görüşünün keçirilməsini iki ölkə arasında sülh müqaviləsi üzrə danışıqların başlanması istiqamətində ilk addım kimi qiymətləndirdi. Dövlətimizin başçısı bildirdi ki, Azərbaycan artıq sülh müqaviləsinin hazırlanması üzrə öz komissiyasının tərkibini formalaşdırıb və Ermənistan tərəfindən də eyni addımın atılmasını gözləyir.

Antoni Blinken, həmçinin ABŞ-ın Ermənistan ilə Azərbaycan arasında nəqliyyat bağlantılarının və kommunikasiyaların açılmasına və bu sahədə texniki dəstəyin göstərilməsinə hazır olduğunu ifadə etdi.

Söhbət zamanı bu yaxınlarda Azərbaycan ilə Avropa İttifaqı Komissiyası arasında enerji sahəsində imzalanmış anlaşma memorandumunun əhəmiyyəti məmnuniyyətlə qeyd olundu.

Sonra dövlətimizin başçısı humanitar məsələlərə toxunaraq, birinci Ermənistan-Azərbaycan müharibəsindən 3890 nəfərdən artıq azərbaycanlının itkin düşmüş şəxs hesab olunduğunu bildirdi və Ermənistan tərəfinə dəfələrlə müraciət edilməsinə baxmayaraq, kütləvi məzarlıqların yerləri barədə məlumat verilməməsinə diqqəti çəkdi.

Prezident İlham Əliyev Azərbaycanın işğaldan azad olunmuş ərazilərində Ermənistan tərəfindən kütləvi şəkildə minaların basdırıldığını və müharibənin başa çatmasından bəri 240 nəfərdən artıq vətəndaşımızın mina partlayışlarında həlak olduğunu və ya sağlamlığını itirdiyini bildirdi.

Telefon danışığı zamanı əməkdaşlığın perspektivlərinə dair fikir mübadiləsi aparıldı.

*Təlim*

## Uğur fədakarlıq və peşəkarlıq olan yerdə qazanılır



Vətən müharibəsi başa çatdıqdan sonra ordumuzun igid, vətənpərvər oğulları sayəsində işğaldan azad edilmiş ərazilərdə böyük quruculuq işləri başladı. Yollar çəkilir, körpülər salınır, yeni yaşayış məntəqələri, məktəblər, xəstəxanalar tikilir, həmçinin digər zəruri işlər görülür. Ata-baba yurdlarından illərdi ayrı düşən məcburi köçkünlərimizin qayıdışı başladı. İlk mərhələdə Zəngilan rayonunun Ağalı kəndinin sakinləri öz evlərinə qayıtdılar. Məlumdur ki, bütün məcburi köçkünlərin geri qayıtması üçün ilk növbədə erməni işğalçılarından azad olunmuş ərazilər minalardan və partlamamış silah-sursatlardan təmizlənməlidir. Bu istiqamətdə dövlətimiz çoxlu işlər aparır - Ermənistan rəhbərliyindən minalanmış ərazilərin xəritələrinin bir qisminin bizə verilməsi, qardaş Türkiyə Respublikasından ən müasir minatəmizləyən qurğuların ölkəmizə gətirilməsi və s.

ANAMA Minatəmizləmə Agentliyinin əməkdaşları ilə yanaşı, Müdafiə Nazirliyinin Mühəndis Qoşunlarının şəxsi heyəti də minaların təmizlənməsi istiqamətində çox mühüm işlər görür. Zabit və əsgərlərimiz bu çətin və şərəfli vəzifənin öhdəsindən bacarıqla gəlir, xidməti vəzifələrinə məsuliyyət və diqqətlə yanaşırlar. Tələb olunan təhlükəsizlik qaydalarına ciddi əməl edərək ərazilərimizi minalardan və partlamamış döyüş sursatlarından təmizləyirlər. Bu günlərdə Ağdam rayonunun ərazilərini minalardan təmizləyən istehkamçıların yanında olduq, onların həm təlim-məşqlərini izlədik, həm də dərslərdə öyrəndikləri bacarıqlarının praktikada canlı şahidi olduq.

(Ardı 2-ci səhifədə)

## Çağırışçıların hərbi hissələr üzrə bölgüsü keçirilib



Müdafiə nazirinin müvafiq əmrinə əsasən yaradılan Nazirliyin baş idarə və idarə rəisləri, həmçinin Azərbaycan Ordusunun Baş Qərargahının məsul vəzifəli zabitlərindən ibarət komissiyanın növbəti toplantısı keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, toplantıda Azərbaycan Ordusunun hərbi hissələrinin komplektləşdirilməsi məqsədilə hərbi xidmətə yeni gələn çağırışçıların bölgüsü həyata keçirilib.

Ali Baş Komandanın müvafiq sərəncamına əsasən, "2022-ci ilin iyul ayında hərbi hissələrə gənc heyətin göndərilməsi planına" uyğun olaraq çağırışçıların bölgü prosesi elektron qaydada xüsusi kompüter proqramı vasitəsilə tam şəffaf şəkildə icra olunur.

Çağırışçıların hərbi hissələr üzrə bölgü prosesində onların ixtisasları, əks-ərazi prinsipi nəzərə alınır, yüksək fiziki hazırlığa malik olanların Xüsusi Təyinatlı Qüvvələrə və ya Komando hərbi hissələrinə göndərilməsinə üstünlük verilir. Eyni zamanda, ailənin tək övladı olan gənclərin xidmətini davam etdirmək üçün ehtiyat bölmələrinə yerləşdirilməsi barədə müvafiq tapşırıq verilib.

Bölgü prosesinə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti və Dövlət Təhlükəsizliyi Xidmətinin nümayəndələri də cəlb olunublar.

## Müdafiə Nazirliyinin məlumatı

*Ötən sutka ərzində erməni silahlı birləşmələri tərəfindən ümumilikdə 9 dəfə təxribat xarakterli silahlı insident törədilib.*

Bunlardan 2-si Azərbaycan-Ermənistan dövlət sərhədinin Qarakilsə rayonunun Saybalı yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərdən ordumuzun Laçın rayonunun Minkənd yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərini atəşə tutmaqla baş verib.

Digər 7 insident isə Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qanunsuz erməni silahlı dəstəsinin üzvləri tərəfindən Azərbaycan Ordusunun Tərtər, Ağdam, Xocavənd və Xocalı rayonları istiqamətlərində yerləşən mövqelərini fasilələrlə müxtəlif çaplı silahlardan atəşə tutmaqla qeydə alınıb.

Bütün hallarda ordumuzun bölmələri tərəfindən görülən adekvat cavab tədbirləri nəticəsində qarşı tərəf susdurulub.

# Uğur fədakarlıq və peşəkarlıq olan yerdə qazanılır

**(Əvvəli 1-ci səhifədə)**

İşğaldan azad olunandan sonra Ağdam rayonuna üçüncü gəlişim idi. İlk dəfə bu gözəl bölgəyə gəlişim 2021-ci ilin martına təsadüf etmişdi. Həmin çağlarda rayonda quruculuq işləri yenicə başlayırdı. Çəkilməsi nəzərdə tutulan yolların ərazisini minalardan təmizləyirdilər. İkinci səfərim isə bu ilin mayına təsadüf etdi. Aradan iki ay keçməsinə baxmayaraq, xeyli quruculuq işləri aparılmışdı. Avtomobil yollarıyla bərabər qatar yolu da şəhərin mərkəzinə doğru xeyli "irəliləmişdi". Üçüncü səfərimdə isə yol boyu gördüyüm mənzərədən ürəyim xeyli açıldı. Torpaq yollara asfalt döşənmiş, geniş yol bu istiqamətlərdə istər hərbi, istərsə də mülki maşınların yolda rahat hərəkətinə şərait yaratmışdır. Dəmir yol xətti də xeyli qabağa çəkilmiş, hazırda isə bu istiqamətdə işlər davam etdirilirdi.

Yeni çəkilmiş rahat yolla Ağdam rayonunun mərkəzinə doğru irəlilədikdən sonra sağ tərəfə - işğaldan azad edilmiş, hazırda istehkamçıların ərazilərini təmizlədiyi Kosalar və Cəvahirli kəndlərinə tərəf döndük. Uzun illər erməni qəsbkarlarının işğalında qalmış başqa yaşayış məntəqələri kimi, bu kəndlər də dağıdılmışdı, demək olar ki, daş-daş üstə qalmamışdı. Çox üzücü və ürəkdağlayan mənzərələr idi. Amma artıq işğaldan azad olunmuş ərazilərdəki böyük quruculuq işlərinin dalğası bu kəndlərdə də hiss olunur.



Kəndlərin ərazisi minalardan və partlamamış döyüş sursatlarından təmizlənir, yollarda tikinti işləri aparılırdı. İnsan hənirtisi eşitdikcə yavaş-yavaş sanki kəndlərin üzü gülür, dağıdılmış daşların çöhrəsinə sevinc ələnir. Ətrafda gördüyümüz bu mənzərələri seyr edə-edə istehkamçıların mina təmizlədikləri əraziyə gəlib çatırıq. Şəxsi heyət öz işiylə məşğuldur. Yaxınlıqda bir neçə texnika dayanıb.

İlk olaraq bölmənin komandiri Şakir Zeynalovla görüşüb söhbət etdik. Zabit dedi ki, şəxsi heyət üzərinə düşən tapşırıqları böyük məsuliyyətlə və peşəkarlıqla yerinə yetirir. Ərazilər mərhələ-mərhələ təmizlənir. Aşkar olunan partlamamış döyüş sursatları və minalar yerində işarələnir, müvafiq partlayış üsulu ilə məhv edilir. Ötən altı ay ərzində 800 hektar ərazi - əkin sahələri minalardan təmizlənib. Günlər arxada qaldıqca biz daha da irəli gedirik. Erməni qəsbkarlarının illər öncə bu ərazilərdə basdırdıqları minaları biz istehkamçılar vətəndaşlarımızın təhlükəsizliyini təmin etmək üçün aşkarlayıb zərərsizləşdiririk. Apardığımız təmizləmə işləri ilə bərabər, həm də şəxsi heyətin peşəkarlığını artırmaq məqsədi ilə müntəzəm olaraq çöl məşğələləri keçiririk. Hərbi qulluqçularımız təcrübə və peşəkarlıqlarını nəzəri və praktiki məşğələlər zamanı daha da zənginləşdirirlər. Dərslərin səmərəliliyinin artırılması məqsədilə komandanlıq həm tədris otaqlarında, həm də səhra şəraitində imkanlar yaradıb. Şəxsi heyətin döyüş hazırlığı yüksək səviyyədədir. Amma buna baxmayaraq bu gün yenə də çöl məşğələsindəyik.



Zabitlə söhbətimiz yekunlaşdıqdan sonra əsgərlər ərazidə öz yerlərini tutdular və məşğələ başlandı. Əvvəlcə kapitan Şakir Zeynalov şəxsi heyətə təhlükəsizlik qaydaları haqqında geniş məlumat verdikdən sonra dərsin mövzusunu və məqsədini izah etdi. Məşğələni leytenant Natiq Həmidov davam etdirirdi. Əsgərlər mövzunu diqqətlə dinləyir, yeni bilikləri həvəslə mənimsəyirdilər. Məşğələnin nəzəri hissəsi başa çatdıqdan sonra gizir Dilsuz Nağıyevin əmri ilə əsgərlər xüsusi formalarını geyindilər. Tələb olunan vaxt çərçivəsində minaaxtaran cihazını işə saldıqdan sonra şəxsi heyət onlar üçün ayrılmış sahədə partlamamış döyüş sursatları və minaları axtarmağa başladılar. Zabitlər əsgərlərin hərəkərlərini daim diqqətdə saxlayır, zəruri məsləhət və tövsiyələr verirdilər. Çöl məşğələsi keçən istehkamçıların hərəkətlərini yaxından izlədikcə bir daha şahidi olduq ki, ərazilərin minalardan təmizlənməsi zamanı bu ixtisas sahiblərinin üzərinə məsuliyyətli vəzifələr düşür. Onlar növbəli şəkildə ərazidə axtarış işləri aparır, beləcə, çöl məşğələsi öz axarı ilə davam edirdi.

Məşğələdə fasilə elan olunanda leytenant Natiq Həmidovla da söhbət etmək fürsəti tapdıq. Gənc zabit dedi ki, əsgərlərimizin hazırlığı yüksək səviyyədədir. Onlar üzərlərinə düşən tapşırıqların öhdəsindən bacarıqla gəlirlər. Təlim-məşq prosesində fəal iştirak edir, zəruri vərdişləri dərindən mənimsəyirlər. Buna görə də işğaldan azad olunmuş ərazilərin partlamamış döyüş sursatlarından və minalardan təmizlənməsi işlərində heç bir qüsura yol vermədən işlərini görürlər.



- Rəşadətli ordumuz Vətən müharibəsində igidlik və qəhrəmanlıq nümayiş etdirdi. Onlar torpaqlarımızı erməni işğalçılarından azad edərək bizlərə Böyük Qələbə sevincini yaşatdılar. Həmin döyüşlər zamanı iştirak edə bilməsək də, bu gün üzərimizə düşən erməni qəsbkarlarının ərazilərə basdırdıqları minaları təmizləmək, bərəkətli torpaqlara həyat vermək kimi məsuliyyətli vəzifələri layiqincə yerinə yetirməyə çalışırıq, - deyə əsgər Kənan Məmmədli söhbətimizə qoşuldu. - Yaxşı bilirik ki, ərazilər minalardan təmizləndikdən sonra illərcə məcburi köçkün kimi digər şəhər və rayonlarımızda yaşayan soydaşlarımızın doğma ocaqlarına qayıdışı mümkün olacaq. Bunun üçün daim prosesi daha da sürətləndirməyə çalışırıq.

Məşğələdə fəal iştirak edən əsgərlərdən Daşqın Kərimov, Aşırlı Məmmədli, Əmrah Şabıyev, Yamil Rəşidli, Dağıstan Həkimov, Sahil Həsənov, Elcan Osmanov, Teyyub Təhməzov və başqaları ilə də söhbət etdik. Əmin olduq ki, təlimlərdə mənimsədikləri bilik və vərdişlər sayəsində qarşılarında dayanan vəzifələrin öhdəsindən bacarıqla gələcəklər.

Fasilə bitdikdən sonra şəxsi heyət yenə öz işinə davam etməyə başladı. Beləcə, addım-addım torpaqlarımız təmizlənir, bacarıqlı istehamçılar işğaldan azad olunmuş ərazilərə ikinci həyat verirlər. Əmin olduq ki, zabit və əsgərlərimizin peşəkarlığı, fədakarlığı və bacarığı sayəsində erməni işğalçılarından azad olunmuş ərazilərimiz yaxın zamanlarda partlamamış döyüş sursatlarından və minalardan tam təmizlənəcək.

**Vahid MƏHƏRRƏMOV**
**"Azərbaycan Ordusu"**

*Nümunəvi xidmət*

## Hər birimiz üzərimizə düşən vəzifələri layiqincə yerinə yetirməyə çalışırıq

Vətən müharibəsi... 27 sentyabr 2020-ci il... 30 illik həsrəti 44 gündə Böyük Qələbə ilə sonlanan əks-hücum əməliyyatlarının başlandığı gün. Hər birimiz bu tarixi səbirsizliklə gözləyirdik. Uşaqdan-böyüyə hamının tək amalı vardı - işğalda olan torpaqlar azad edilsin, ərazi bütövlüyümüz bərpa olunsun. Ölkə hüdudundan kənarda yaşayan azərbaycanlılar da döyüşlərə qatılmaq üçün Vətənə qayıdırlar.

Təsadüfən Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yanından keçəndə qapıya yığılmış könüllü gənclərimizi gördükdə bir anlıq ayaq saxladım. Valideynləri ilə sağollaşan, əllərindən öpərək "Başınızı dik tutun. Çünki qalib ordunun əsgərləri kimi qayıdacağı" deyən Vətən övladlarını qürurla alqışladım.

Bəli, həmin övladlar təkcə valideynlərini yox, bütöv Azərbaycan xalqını Böyük Qələbə ilə sevindirdilər. Xalqımıza bəxş etdikləri bu sevinci zaman-zaman bizlər də ezamiyyətdə olarkən onlarla bölüşdük. Hər biri ilə söhbətləşərkən gözlərindəki qüruru sezməmək mümkün deyildi.

Yenə də əsgərlərimizlə görüşə gəlmişik. Hərbi hissənin ərazisində asudə vaxtlarını səmərəli keçirən şəxsi heyətə yaxınlaşdıq. Müsahibim Quba rayonundan olan əsgər Tariyel Tahirovdur. O, əyninə geydiyi əsgəri formanın qürurverici hiss olduğunu bildirdi:



- Artıq bir ildən çoxdur ki, hərbi xidmətdəyəm. Əsgər yoldaşlarım kimi mən də xoşbəxtəm ki, Vətənin müdafiəsindəyəm. Gəldiyim gündən komandirlərimizin bizə öyrətdiklərini mənimsəyir, intizamlı əsgər olmağa çalışmışam. Çünki döyüşlər zamanı intizamlı və bacarıqlı Azərbaycan Ordusunun qalib gəldiyinin şahidi olduq. Həmin vaxtı mən könüllü olaraq müraciət etsəm də, iştirak etmək qismət olmadı. Amma nəticədə ordumuz düşmən üzərində Qələbə qazandı. Biz də evimizin eyvanından üçrəngli bayrağımızı qürurla dalğalandırır, Ali Baş Komandanın "Qarabağ Azərbaycandır!" kəlamını uca səslə deyirdik. Sanki səsimizi təkcə ətrafdan keçənlərin deyil, bütün dünyanın duymasını istəyirdik.

Əsgər Tariyel Tahirov bundan sonra da xidmətində daha məsuliyyətli olacağını, düşmənin başını lazım gələrsə yenə də əzməyə hazır olacağını dedi.

Təkcə əsgər Tariyel Tahirov yox, bütün Azərbaycan əsgəri bundan sonra düşmənə baş qaldırmağa, hər hansı təxribat törətməyə aman verməyəcək. Çünki onlar üzərlərinə düşən vəzifəni layiqincə yerinə yetirirlər ki, bütövləşən Azərbaycan daha da çiçəklənsin.

**Hüsniyyə İDRİSOVA**
**"Azərbaycan Ordusu"**

# Şəhidlərin xatirəsinə həsr olunmuş anım mərasimləri keçirildi





İkinci Fəxri xiyaban...

Vətənimizə xidmətləri ilə müqəddəsləşənlərin uyuduğu məkan.

Əzəmətlə dalğalanan üçrəngli bayraqlarımızın kölgəsində gül-çiçəyə bürünən məzarlar. Baş daşından gülümsəyən məğrur baxışlı bu igidlər indi hamımızın ehtiramının ünvanıdır. Bu ünvanda Vətənimizin azadlığı üçün bir an belə düşünmədən canlarını fəda etmiş şəhidlərimizin ziyarəti hər bir azərbaycanlının vəfa və vətəndaşlıq borcudur.

Şəhidlik müqəddəs zirvədir. Yüksək əxlaqi keyfiyyətlərə malik olan bu insanlar qəlblərində Vətənə, millətə sonsuz sevgi olduğu üçün şəhidlik mərtəbəsinə ucalıblar. Bu zirvəyə müqəddəs amalları uğrunda döyüşən, qorxu nədir bilməyən cəsarətli, ləyaqətli insanlar yüksəlir.

İkinci Şəhidlər xiyabanında Vətən müharibəsi şəhidləri mayor Fərid Tahir oğlu Ələkbərovun, kapitan Nurlan Hamlet oğlu Mustafayevin və əsgər Nurlan Etibar oğlu Ağakişiyevin xatirəsinə həsr olunan anım tədbirləri keçirildi.

Tədbirdə Müdafiə Nazirliyinin, Abşeron və Yasamal rayon İcra hakimiyyətlərinin, eləcə də ictimaiyyətin nümayəndələri, şəhidlərin ailə üzvləri, yaxınları, döyüş yoldaşları və kütləvi informasiya vasitələrinin əməkdaşları iştirak etdilər.

Vətən müharibəsi şəhidlərinin məzarları üzərinə əklillər qoyuldu, tər çiçəklər düzüldü və ruhlarına dualar oxundu.

Ümummilli lider Heydər Əliyevin, Azərbaycanın suverenliyi, müstəqilliyi və ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzinin orkestri tərəfindən Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

Tədbiri giriş sözü ilə açan Heydər Əliyev adına Hərbi İnstitutun rəisi general-mayor Fizuli Salahov bildirdi ki, 2020-ci il sentyabrın 27-də işğalçı Ermənistanın Qarabağda növbəti təxribatına cavab olaraq Müzəffər Ali Baş Komandanın sərkərdəliyi ilə əks-hücum əməliyyatına başlayan rəşadətli Azərbaycan Ordusu 44 günlük Zəfər yürüşü ilə ölkəmizin ərazi bütövlüyünü təmin etdi. Şanlı ordumuz hər bir şəhər, kənd, qəsəbə, strateji yüksəkliyin düşməndən azad olunması uğrunda rəşadətlə mübarizə apararaq böyük tarixi Zəfərə imza atdı. Vətən müharibəsi Prezident, Ali Baş Komandan İlham Əliyevin qətiyyəti, ordumuzun qəhrəmanlığı, əbədiyaşar şəhidlərimizin canı, xalqımızın birliyi hesabına müstəqillik tarixinə qızıl hərflərlə yazıldı.



General-mayor Fizuli Salahov şəhid Fərid Ələkbərovun müəllim kimi hərbi məktəbdə fəaliyyətindən geniş söhbət açaraq həm onun peşəkar hərbçi, həm də əsl pedaqoq olaraq tələbələri tərəfindən sevildiyini vurğuladı. Natiq çıxışında şəhidin şərəfli həyat yolundan da danışdı: "Ələkbərov Fərid Tahir oğlu 1980-ci ildə Bakıda anadan olub. O, 1996-cı ildə İstanbul Kuleli Hərbi Liseyinə daxil olub və 2000-ci ildə təhsilini bitirib. Həmin ildə Ankaradakı Quru Qoşunları Hərbi Məktəbinə daxil olan Fərid 2004-cü ildə həmin məktəbdə təhsilini başa vurub. Bununla da kifayətlənməyən Fərid İsparta şəhərindəki Dağ Komando Məktəbinə daxil olub və buranı da müvəffəqiyyətlə bitirib. O, 2005-ci ildə Polatlı Topçu Məktəbini fərqlənmə diplomu ilə başa vurub.

2020-ci il sentyabrın 27-də Vətən müharibəsinə qatılan mayor Fərid Ələkbərov Murovdağ uğrunda, Cəbrayıl, Füzuli, Şuşa istiqamətində gedən döyüşlərdə iştirak edərək böyük şücaət göstərib. Döyüşlərdə ayağından qəlpə yarası almasına baxmayaraq, döyüşü davam etdirən qəhrəman zabit düşmənin canlı qüvvəsini məhv edərək taborun mühasirədən çıxmasında müstəsna rol oynayıb. Bu, Fəridin sonuncu döyüşü olub. O, 2020-ci il noyabrın 9-da Şuşa uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub".

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən mayor Fərid Ələkbərov ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif olunub.

İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsinin zabiti polkovnik-leytenant Elmar Zeynalabdinov şəhid kapitan Nurlan Mustafayev haqqında geniş məlumat verərək qeyd etdi ki, o, 1990-cı ildə Sumqayıt şəhərində anadan olub. 2005-2008-ci illərdə C.Naxçıvanski adına Hərbi Liseydə, 2008-2013-illərdə isə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində (indiki Heydər Əliyev adına Hərbi İnstitut) təhsil alıb. Həmçinin 2010-2013-cü illərdə Almaniya Federativ Respublikasının Ali Hərbi Məktəbini "Dağatıcı" ixtisası üzrə müvəffəqiyyətlə başa vurub. Dörd xarici dil bilən Azərbaycan Ordusunun kapitanı Nurlan Mustafayev 2020-ci il sentyabrın 27-də Azərbaycan Ordusu tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlayan Vətən müharibəsində Murovdağın, Füzulinin və Hadrutun azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib. Oktyabrın 12-də Hadrut uğrunda aparılan əməliyyatlar zamanı şəhidlik zirvəsinə ucalıb.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən Nurlan Mustafayev ölümündən sonra "Azərbaycan Bayrağı" ordeni, "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilib.

Şəhid Nurlan Ağakişiyevin qısa, amma şərəfli ömür yoluna nəzər salan zabit vurğuladı ki, o, 2002-ci ildə Sumqayıt şəhərində Qarabağ müharibəsi qazisi Etibar Ağakişiyevin ailəsində dünyaya göz açıb. 2008-2017-ci illərdə Abşeron rayonunun Mehdiabad qəsəbəsində 3 nömrəli tam orta məktəbdə, 2017-2019-cu illərdə isə İdarəetmə və Texnologiya Kollecində təhsil alıb.



2020-ci ildə "N" hərbi hissəsində Vətənə müqəddəs övladlıq borcunu yerinə yetirmək üçün əsgəri forma geyinərək müddətli həqiqi hərbi xidmətə başlayıb. Vətən müharibəsinin ikinci günü - sentyabrın 28-də gedən döyüşlərdə şəhid olub.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulan tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən Nurlan Ağakişiyev ölümündən sonra "Vətən uğrunda" və "Ağdamın azad olunmasına görə" medalları ilə təltif edilib.

Abşeron rayon İcra Hakimiyyətinin başçısı Abdin Fərzəliyev çıxışında Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə başa çatan Vətən müharibəsinin, şəhidlərimizin döyüş yolunun gələcək nəsillərə nümunə olacağını, Vətən uğrunda canını fəda edən igid oğullarımızın xalqımızın yaddaşında əbədi yaşayacağını, onların xatirəsinin dövlətimiz tərəfindən daim uca tutulduğunu və tutulacağını bildirdi. Vurğuladı ki, Azərbaycan Ordusunun İkinci Qarabağ müharibəsində iştirak edən hər bir əsgər və zabitinin Böyük Zəfərimizin əldə olunmasında göstərdikləri misilsiz xidmətlər, qəhrəmanlıqlar heç zaman unudulmayacaq. İşğal altındakı ərazilərimiz düşməndən azad olunandan bir neçə gün sonra dövlət başçısının və birinci xanımın tarixi torpaqlarımıza səfəri hər birimizdə qürur hissi yaratdı. Dövlətimizin başçısı 28 ildən sonra həmin ərazilərdə bayrağımızı ucaltdı və bəyan etdi ki, bundan sonra bu torpaqda biz yaşayacağıq, necə ki, əsrlər boyu babalarımız yaşayıb. Düşmənin vurduğu yaraları sağaltmaq, Qarabağı işğaldan əvvəlki gözəl çağlarına qaytarmaq üçün indi dövlətimiz böyük işlər görür. Bu gün düşməndən azad edilən torpaqlarda minatəmizləmə fəaliyyətləri ilə yanaşı, əsas infrastruktur layihələri sürətlə reallaşdırılır. Əminik ki, yaxın gələcəkdə gözəl Qarabağımız yenidən gülüstana çevriləcək.

Şəhidlərin ailə üzvləri və yaxınları göstərilən diqqət və qayğıya, eləcə də şəhidlərin xatirəsinin daim uca tutulduğuna görə Azərbaycan Respublikasının Prezidentinə və Müdafiə Nazirliyinin rəhbərliyinə öz dərin minnətdarlıqlarını bildirdilər.

**Baş leytenant
Günay TAĞIYEVA
"Azərbaycan Ordusu"**

# Vətən müharibəsindən sonra yaradılan Ordu birliyinin ildönümü qeyd edilib





*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə xalqımızın və Silahlı Qüvvələrimizin möhtəşəm Qələbəsi ilə başa çatan İkinci Qarabağ müharibəsindən sonra da respublikamızın ərazi bütövlüyünün, təhlükəsizliyinin daha etibarlı müdafiəsi, qorunması, qalib Azərbaycan Ordusunun daha da qüdrətlənməsi istiqamətində mühüm tədbirlər həyata keçirilir.*



Bütün sərhəd boyunca yerləşdirilən hərbi hissələrin maddi-texniki bazası möhkəmləndirilir, ən müasir hərbi texnika, silah və sursatlar alınır, yeni hərbi şəhərciklər inşa edilir, qarşıya qoyulan istənilən döyüş tapşırığını yerinə yetirməyə hazır və qadir əməliyyat komando hərbi hissələri fəaliyyətə başlayır, şəxsi heyətin mənəvi-psixoloji təminatının yüksəldilməsinə, Vətən müharibəsinin qəhrəmanlıq ənənələri ruhunda tərbiyə edilməsinə xüsusi önəm verilir.

İşğaldan azad edilən Kəlbəcər rayonuna səfəri çərçivəsində yeni yaradılan əməliyyat komando hərbi hissəsinə Döyüş Bayrağının təqdim olunması münasibətilə keçirilən təntənəli mərasimdə Müzəffər Ali Baş Komandan İlham Əliyevin dediyi kimi: "Azərbaycan Ordusu daha güclüdür: həm təchizat nöqteyi-nəzərdən, həm də döyüş qabiliyyəti nöqteyi-nəzərdən. Ona görə biz bundan sonra da ordumuzun inkişafı üçün ciddi addımlar atacağıq... Əgər Ermənistan sərhədlərin müəyyən edilməsi işində yenə də öz köhnə taktikasına qapılsa, vaxt uzatmağa çalışsa, nəticədə özü peşman olacaq. Biz Ermənistanda baş qaldıran revanşist qüvvələrin hərəkətlərinə diqqətlə baxırıq. Onlar da bunu bilsinlər. Bax, o dağın başında mənim sözlərim yazılıb: "Dəmir yumruq yerindədir!" Bunu heç kim unutmasın".

AZƏRTAC xəbər verir ki, Vətən müharibəsinin başa çatması ilə yaranmış şəraitə uyğun olaraq işğaldan azad edilmiş ərazilərdə müdafiə və mühafizənin təşkili, Azərbaycan Ordusunun qarşısında qoyulmuş döyüş tapşırıqlarının müvəffəqiyyətlə yerinə yetirməsini təmin etmək məqsədilə bir il əvvəl - 2021-ci il iyulun 24-də yaradılmış Ordu birliyinin ildönümünə həsr olunmuş təntənəli mərasimdə bu və ya digər aktual məsələlər barədə ətraflı söhbət açılıb.

Əvvəlcə Müdafiə Nazirliyinin və Ordu birliyinin rəsmiləri, Vətən müharibəsi iştirakçıları, şəhid ailələrinin üzvləri, xidmətdə fərqlənən hərbi qulluqçulardan bir qrupu qərargah binasının qarşısında xalqımızın ümummilli lideri Heydər Əliyevin xatirəsinə ucaldılan abidəni ziyarət edərək qarşısına qızılgül çələngi qoyub, güllər düzüb, ehtiramlarını bildiriblər.



Əsgər klubunda keçirilən təntənəli mərasimdə ulu öndər Heydər Əliyevin və respublikamızın suverenliyi, ərazi bütövlüyü uğrunda mübarizədə şəhidlik zirvəsinə ucalan Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycanın Dövlət Himni ifa olunub.

Müdafiə Nazirliyi Şəxsi Heyət Baş İdarəsi rəisinin müavini - Kadrlar İdarəsinin rəisi general-mayor Elçin Xəlilov şəxsi heyəti salamlayaraq deyib: "Bu gün Azərbaycan Ordusunun həyatında daha bir əlamətdar hadisənin şahidiyik. Bir il əvvəl müdafiə nazirinin müvafiq əmri ilə yaradılan Ordu birliyinin ildönümünü qeyd edirik. Ötən il ərzində Müzəffər Ali Baş Komandan İlham Əliyevin və Müdafiə Nazirliyinin rəhbərliyinin daimi diqqət və qayğısı ilə əhatə olunan bu Ordu birliyində həyata keçirilən məqsədyönlü tədbirlər, zabit və gizirlərin öz xidməti vəzifələrini böyük həvəslə yerinə yetirməsi, əsgərlərimizin içdikləri Hərbi Anda sadiqliyi, Hərbi Nizamnamələrin tələblərinə uyğun olaraq xidmətin düzgün təşkili deməyə imkan verir ki, bu Ordu birliyi də, heç şübhəsiz, yaxın gələcəkdə Azərbaycan Ordusunun lider hərbi hissələrindən birinə çevriləcək".

General-mayor E.Xəlilov tədbirdə iştirak edən şəhid analarına müraciətlə bildirib ki, sizin kədəriniz hər birimizin kədəridir. Şəhidlərimizin müqəddəs ruhları qarşısında bir daha ehtiramla baş əyir, Vətənə belə igid oğullar bəxş etdiyinizə görə sizlərə minnətdarlığımızı bildirərək əllərinizdən öpürük. Təsəllimiz ondadır ki, şəhidlərimizin intiqamını döyüş meydanlarında vuruşaraq aldıq, unudulmaz şəhidlərimizin qanı yerdə qalmadı. Bu tədbirdə iştirak edən hər bir əsgər də, hər bir zabit də sizin övladlarınızdır. Qəhrəman oğullarımızın davamçıları olan bu gənclər Müzəffər Ali Baş Komandanın hər bir əmrinə hər an hazırdırlar. Lazım gələcəksə, onlar yenə də döyüş meydanlarına atılaraq şəhidlərimizin ruhlarını bir daha şad edəcəklər.

General-mayorun söylədiyi "Əziz qazilərimiz, siz canlı, şanlı yaşayan əfsanələrsiniz. Vətən və qədirbilən xalqımız sizin xidmətlərinizi heç vaxt unutmayacaq. Siz həmişə sıralarımızdasınız. Dünən də bir yerdə idik, bu gün də bir yerdəyik, gələcəkdə də bir yerdə olacağıq. Həm dövlətimiz, həm də hər bir Azərbaycan vətəndaşı sizinlə fəxr edir, mərdlik və şücaətinizdən qürur duyuruq" fikirləri tədbir iştirakçıları tərəfindən alqışlarla qarşılanıb.

Sonra general-mayor E.Xəlilov müdafiə naziri general-polkovnik Zakir Həsənovun şəxsi heyətə ünvanlanan təbrik məktubunu tədbir iştirakçılarının nəzərinə çatdırıb.

Təbrik məktubunda deyilir ki, xalqımızın ümummilli lideri Heydər Əliyevin memarı olduğu müasir mütəşəkkil Azərbaycan Ordusu Ulu Öndərin ənənələrini uğurla davam etdirən Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə daha da qüdrətlənərək qalib ordu səviyyəsinə yüksəlib. Respublikamızın müstəqilliyinin təminatçısı olan ordumuz bu gün istənilən döyüş tapşırığını yerinə yetirməyə hazır və qadirdir.



Qeyd olunub ki, İkinci Qarabağ müharibəsindən sonra digər sahələrlə yanaşı, ordu quruculuğunda da mühüm islahatlar həyata keçirilir. Ordunun maddi-texniki bazası dinamik sürətlə inkişaf etdirilir, şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlığının daha da yüksəldilməsi üçün böyük səylər göstərilir. Yeni hərbi hissələr yaradılır, hərbi şəhərciklər inşa edilir, hərbi qulluqçuların sosial müdafiəsi, nümunəvi xidməti üçün hər cür şərait yaradılır.

Müharibədən sonra işğaldan azad edilən bölgələrdə dislokasiya olunan hərbi hissələr düşmən təxribatlarının qarşısını vaxtında və qətiyyətlə alaraq xidməti vəzifələrinin öhdəsindən layiqincə gəlirlər.

Bir il əvvəl yaradılmasına baxmayaraq, Ordu birliyinin komandanlığının fəaliyyəti, eləcə də əsgər və zabitlərimizin xidməti təqdirəlayiqdir. Əminliklə bildirilib ki, Azərbaycan əsgər və zabitləri bundan sonra da ulu öndər Heydər Əliyevin ideyalarına sadiq qalaraq müzəffər sərkərdəmizin rəhbərliyi altında Vətənə, xalqa, dövlətə sədaqətlə xidmət edəcəklər.

**(Ardı 5-ci səhifədə)**

# Vətən müharibəsindən sonra yaradılan Ordu birliyinin ildönümü qeyd edilib





(Əvvəli 4-cü səhifədə)

Məktubda, həmçinin qeyd edilib: "Sizin sıralarınızda böyük döyüş təcrübəsinə malik yüzlərlə müharibə iştirakçısı vardır. Onlar respublikamızın ərazi bütövlüyünün bərpası, tarixi torpaqlarımızın işğaldan azad edilməsi uğrunda hərbi əməliyyatlarda fəallıq göstəriblər.

İnanıram ki, siz göstərilən etimadı doğruldaraq bu qəhrəmanlıq və şücaət nümunələrindən bəhrələnəcək, şanlı döyüş tariximizə yeni parlaq səhifələr yazacaqsınız.

Hərbi hissənin yaradılmasının birinci ildönümü münasibətilə sizi təbrik edərək hər birinizə şəxsi həyatınızda və xidmətlərinizdə uğurlar arzulayıram!".

Quru Qoşunların komandanı general-leytenant Ənvər Əfəndiyevin təbrikini də tədbir iştirakçıları minnətdarlıqla qarşılayıblar.

Vətən Müharibəsi Qəhrəmanı, Ordu birliyinin komandiri general-mayor Kənan Seyidov hərbi hissənin birillik fəaliyyəti barədə məlumat verib. Diqqətə çatdırıb ki, yeni yaradılan birliyin tərkibinə daxil olan hərbi hissələrin çoxu Azərbaycanın ərazi bütövlüyünün bərpası və tarixi torpaqlarımızın işğaldan azad edilməsi uğrunda Vətən müharibəsində hərbi əməliyyatlarda iştirak edib. Şəhidlərimiz, qazilərimiz var. Beş nəfər hərbi qulluqçumuz "Vətən Müharibəsi Qəhrəmanı" adına layiq görülüb. Yüzlərlə döyüşçümüz orden və medallarla təltif olunub. İgidlərimizin qəhrəmanlıq ənənələri bu gün uğurla davam etdirilir.

Döyüş hazırlığı planına əsasən, NATO-nun əməliyyat imkanları konsepsiyası çərçivəsində təlimlər mütəşəkkil şəkildə keçirilib. Təlimlər zamanı motoatıcı bölmələrin təchizatı, avadanlığı, rabitə vasitələri ilə təminatı, eləcə də şəxsi heyətin ingilis dilini bilmə səviyyəsi, digər zəruri əməliyyat imkanlarının NATO standartları və tələbləri ilə icrası və döyüş atışlı məşğələlər yerinə yetirilib. Əməliyyat komando hərbi hissələrində aparılan praktiki məşqlərdə komandolar maneələri yüksək peşəkarlıqla dəf edərək kəşfiyyat cığırının açılması və şərti düşmənin məhv edilməsi tapşırıqlarını uğurla icra ediblər. Komandoların fərdi bacarıqlarının, o cümlədən atəş və taktiki hazırlığının daha da yüksəldilməsi məqsədilə keçirilən təlimlərdə qarşıya qoyulan tapşırıqlar müvəffəqiyyətlə nəticələnib.



Ordu birliyi və tabeçilikdə olan hərbi hissələrlə ərazidə komanda-qərargah təlimləri, tank, motoatıcı taborları və artilleriya divizionu ilə taktiki təlimlər yüksək səviyyədə təşkil olunub. Əlahiddə rabitə, maddi-texniki təminat taborları ilə taktiki xüsusi təlimlər öz bəhrəsini verib. Bütün bu təlimlərin keçirilməsində əsas məqsəd bölmələrin döyüş qabiliyyətinin artırılması, şəxsi heyətin praktiki vərdişlərinin inkişaf etdirilməsi ilə bərabər peşəkar fəaliyyətinin təkmilləşdirilməsidir və biz buna nail olmuşuq.



Vətən Müharibəsi Qəhrəmanı K.Seyidov şəxsi heyətin bilik və bacarıqlarının təkmilləşdirilməsi, şəxsi heyət arasında fərqlənən hərbi qulluqçuların mükafatlandırılması və həvəsləndirilməsi məqsədilə yarış və müsabiqələrin təşkili, şəxsi heyətə hərbi intizamın qaydalarının, onlarda milli ruh, ləyaqət, Vətənə sevgi hisslərinin, iradi keyfiyyətlərin aşılanması məqsədilə keçirilən tədbirlərdən, Azərbaycan Ordusu səviyyəsində irimiqyaslı təlimlərdə qazanılan uğurlardan da bəhs edib.

Hərbi qulluqçuların sosial-məişət və xidmət şəraitinin yaxşılaşdırılması, şəhid və qazi ailələrinin daim diqqətdə saxlanılması, şəhidlərin xatirəsinin həmişə əziz tutulması məsələlərinə də toxunan Ordu birliyi komandiri sonda Müzəffər Ali Baş Komandan İlham Əliyevi və Müdafiə Nazirliyinin rəhbərliyini əmin edib ki, göstərilən etimadı bundan sonra da Vətənə, xalqa, dövlətə sədaqətləri və nümunəvi xidmətləri ilə doğruldacaqlar.

Tədbir iştirakçıları Ordu birliyinin birillik fəaliyyətinə həsr olunan videoçarxı maraqla izləyiblər.

Xidmətdə fərqlənən bir qrup hərbi qulluqçunun təltif edilməsi haqqında Ordu birliyi komandirinin əmri oxunub və mükafatlar təqdim edilib.



Daha sonra şəhid anaları çıxış edərək qəhrəman övladları ilə fəxr etdiklərini, hər bir Vətən əsgərinin simasında onları gördüklərini bildiriblər. Qazilər isə döyüşdə sağlamlıqlarını itirsələr belə, bu gün də Müzəffər Ali Baş Komandanın əmrlərinə hazır olduqlarını bəyan ediblər.

İkinci Qarabağ müharibəsində bir gözünü itirən Vətən Müharibəsi Qəhrəmanı əsgər Azər Abdullayev deyib: "Lazım gələrsə, ikinci gözümü də Vətən uğrunda qurban verməyə hazıram!".

Əməkdar İncəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü polkovnik Abdulla Qurbaninin layihəsi əsasında təqdim olunan ədəbi-bədii proqram təntənəli mərasim iştirakçıları tərəfindən rəğbətlə qarşılanıb.

Respublikanın Xalq artistləri Samir Cəfərov, Gülyaz Məmmədova, Əməkdar artistlər Cahangir Qurbanov, Təyyar Bayramov, Nigar Şabanova, gənc istedadlar Vüqar Qarabağlı, Kənan Bayramov və Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin xoreoqrafiya qrupunun Vətəni, Müzəffər Ali Baş Komandanı, ordu ilə xalqın birliyini, şəhidlərin ölməzliyini, Azərbaycan Ordusunun qüdrətini tərənnüm edən vətənpərvərlik mahnıları, şeirlər və rəqslər tədbir iştirakçılarını daha böyük uğurlara ruhlandırıb.



Sonra qazilər səhnəyə dəvət edilib və sözləri Abdulla Qurbaniyə, musiqisi isə Azad Zahidə aid olan "Qazilər haqqında ballada"nın ilk təqdimatı olub. Əməkdar artist Cahangir Qurbanov və əsgər xorunun ifa etdiyi qəhrəmanlıq balladasını mərasim iştirakçıları ayaq üstə alqışlayıblar.

Əsgər klubunda keçirilən təntənəli mərasimdən sonra sıra meydanında hərbçilərin nümunəvi çıxışları olub.

Əsgər yeməkxanasında bayram süfrəsi açılıb və Ordu birliyinin ildönümünə həsr olunan tədbir yubiley tortunun kəsilməsi ilə başa çatıb.

*Vətən Müharibəsi Qəhrəmanlarımız*

# Ölümləri ilə ölümsüzləşən qəhrəmanlar



## Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev:

***"Bizim şanlı müharibəmiz indi müxtəlif ölkələrin ali məktəblərinin hərbi dərsliklərindədir və bunu bir çox hərbi ekspertlər qeyd edirlər. Çox çətin relyefi olan ərazini, Şuşa kimi alınmaz qalanı cəmi 44 gün ərzində azad etmək ancaq Azərbaycan əsgərinin ruhu, gücü hesabına mümkün olmuşdur. Biz bütün dünyaya göstərdik ki, həm ruhən, həm fiziki cəhətdən, həm peşəkarlıq, həm döyüş qabiliyyəti, həm də Vətənə olan sevgi və məhəbbət nöqteyi-nəzərindən böyük xalqıq".***

**(26 iyun 2022-ci il, Kəlbəcər rayonunda "N" hərbi hissəsinin açılışındakı çıxışından)**

*Bəli, bu o ruh idi ki, istər həmin dövrdə xidmətdə olanlar, istər ehtiyatdan xidmətə çağırılanlar, istərsə də könüllü olaraq döyüşlərə gəlməyə can atan Vətən övladlarını Vətən müharibəsində iştirak etməyə sövq etdi.*

Vüqar Əhməd oğlu Ağayev 1973-cü ilin 4 martında Qubadlının Xanlıq kəndində dünyaya göz açmışdır. Qubadlının səfalı havasını udmuş, suyunu içmiş, uşaqlığının ən gözəl xatirələrini Xanlıq kəndində yaşamışdır. Atası hərbçi olduğundan yaşayış yerini dəyişsələr də, Qubadlı onun üçün daha əziz və doğma olmuşdur. Haradan biləydi ki, gün gələcək, illərlə Qubadlının həsrətini çəkəcəkdi...

Birinci Qarabağ döyüşləri başlayanda Vüqar Ağayev müddətli həqiqi hərbi xidmətdə idi. Həmin illərdə ölkədə daxili çəkişmələr baş alıb gedir, xaos, böhran və hakimiyyət uğrunda mübarizə çox ciddi fəsadlara gətirib çıxarmışdı. Ordunu idarə etmək üçün vahid komandanlıq yox idi. Ermənistan isə bundan istifadə edərək torpaqlarımızı zəbt etməyə davam edir, şəhər və kəndlərimiz işğala məruz qalır, mülki əhalimiz öz dədə-baba torpaqlarından didərgin salınırdı. Əsgər Vüqar Ağayev Azərbaycanın Milli Qəhrəmanı Əliyar Əliyevin komandiri olduğu taborda döyüşürdü. Döyüşlər məlum səbəblərdən məğlubiyyətlə nəticələnsə də, yeni formalaşmaqda olan milli orduda peşəkar zabit kadrlarının yetişməsi üçün zəmin yaratdı. Orduya bağlılığı, vətənpərvərliyi nəzərə alınaraq ali hərbi təhsil almağa göndərilənlərdən biri də Vüqar oldu. Ali hərbi təhsilini müvəffəqiyyətlə başa vuran Vüqar Ağayev zabit kimi xidmətinə davam etmək üçün Naxçıvanda yerləşən hərbi hissələrdən birinə göndərilir.

### Qubadlıdan Naxçıvana

Uşaqlıq illəri şən keçsə də, gəncliyi ölkənin ağır illərinə təsadüf etmiş, düşmənlə üz-üzə dayanaraq torpaqlarımızın azadlığı uğrunda döyüşmüşdü. Torpaq həsrəti, Qubadlı nisgili və məğlubiyyətlə barışmamazlıq hissi onu ömürlük hərb peşəsinə bağlamışdı. 1996-cı ildən Naxçıvanda leytenant kimi xidmətinə başlayan Vüqar Ağayev 20 il qüsursuz xidmət edərək mayor rütbəsinədək yüksəlmiş, xidməti dövründə bir sıra medallara - Silahlı Qüvvələrinin 90, 95, 100 illik yubiley medalları, "Hərbi xidmətdə fərqlənməyə" görə 3-cü dərəcəli, "Qüsursuz xidmətə görə" 1-ci, 2-ci, 3-cü dərəcəli medallara layiq görülmüşdü. Gənc zabitlərin yetişməsinə, eləcə də əsgərlər arasında hərbi vətənpərvərlik ruhunun yüksəldilməsinə töhfələr verən zabitimizin torpaq həsrəti, Qubadlı nisgili heç vaxt sönməmişdi. Naxçıvanın müxtəlif bölgələrində xidmət edən zabit elə ömür-gün yoldaşı ilə burada tanış olaraq ailə həyatı qurmuşdur. 2016-cı ildə təqaüdə çıxdıqdan sonra övladlarının - Yeganə və Pərvinin təhsili ilə əlaqədar Naxçıvanda yaşamağa davam etmişdir. Qubadlı qədər Naxçıvan da onun üçün əziz idi. Burada xoşbəxtliyini tapmış, Naxçıvanın hər daşını, qayasını sevmiş, müdafiəsində iştirak etmişdir.

### Naxçıvandan Qubadlıya

2020-ci il. Sentyabrın 27-də başlayan Vətən müharibəsi hər kəs kimi, Vüqar Ağayevdə də böyük bir ümid yaradır. Xidməti dövründə milli ordunun inkişafına şahidlik edən peşəkar zabit yaxşı bilirdi ki, bu artıq 90-cı illərin ordusu deyil. Müzəffər Ali Baş Komandanın diqqət və qayğısı nəticəsində qurulmuş milli ordu istənilən gücün qabağında dayanmağa hazır və qadirdir. Bütün bu düşüncələr, səbirsizliklə gözlədiyi "İrəli!" əmri onu döyüşlərə atılmağa daha da ruhlandırmışdı. Artıq heç bir qüvvə onu saxlaya bilməzdi. Nə ailə səadəti, nə təqaüdə çıxmağın sığortası. Çünki Qubadlı var idi... Qubadlı - üstündə ilk ayaq açıb yeridiyi torpaq. Bu elə bir hissdir ki, onu təsvir etməyə qələmin gücü yetməz. Heç ölümün də gücü yetməz. O hissin adı Vətəndir.



*Çağırır Vətən,*
*çağırır Anam*
*Mənfur düşməndən*
*qisas almağa.*

Qisas vaxtı çatmışdı. "Qubadlını ovcumun içi kimi bilirəm, mən orada olmalıyam", - deyən Vüqar Ağayev ailəsi ilə sağollaşıb yola düşür. 2020-ci ilin oktyabrında könüllü olaraq Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Qubadlı Rayon Bölməsinə müraciət edərək, Vətən müharibəsinə qatılır.

Qubadlı uğrunda şiddətli döyüşlər gedirdi. Yüksəkliklərdə düşmən hərbi birləşmələri yerləşdirmiş, Xanlıq qəsəbəsində güclü istehkam qurmuşdu. Qubadlını azad etmək üçün, ilk növbədə, yüksəkliklər düşməndən təmizlənməli idi. Cəsur döyüşçülərimiz sayəsində şəhərə hakim olan yüksəkliklər nəzarətə götürüldü, ətrafda yerləşən kəndlər, o cümlədən Xanlıq qəsəbəsi, Padar, Sarıyataq, Mahmudlu kəndləri düşməndən azad olundu.

Qubadlı istiqamətində gedən döyüşlərə qatılan Vüqar deyilənə görə doğma kəndi Xanlıq azad ediləndə ata-baba ocağına - evinə gedir. Gözündəki, könlündəki illərin həsrətini bitirmək üçün...

Noyabrın 1-i Qubadlı rayonunun Çardaqlı kəndində Vüqar Ağayev şəhadətə qovuşur. Qubadlının işğaldan azad edilməsini dövlət başçısı, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tarixi hadisə adlandırıb, qələbəmizi yaxınlaşdıran amillərdən biri kimi dəyərləndirib. Bu qələbənin qazanılmasında şəhid mayor Vüqar Ağayevin də əməyi var. Doğma el-obasının azadlığa qovuşduğunu görməyi və bu fəaliyyətdə əməyinin olması qəhrəmana birbaşa Vətən, torpaq sevgisi, peşəsinə sadiqlik, zabit şərəfi və intiqam hissi nəsib edir. Uğruna həyatından keçdiyi ana torpağına qovuşur və ən ali məqama - şəhadətə yüksəlir. 30 illik həsrətin Zəfər sevincini xalqına yaşadan qəhrəmanlardan biri olmaq səadəti ilə bitirir. Birinci Qarabağ döyüşlərində əsgər kimi yarımçıq qoyduğu işi İkinci Qarabağ döyüşündə zabit kimi şərəflə sonlandırır.

### "Torpağına baş əyərəm, ey Vətən"

Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə və işğal olunmuş ərazilərin azad olunması zamanı düşmənin məhv edilməsi üzrə qarşıya qoyulmuş döyüş tapşırığını yerinə yetirən zaman göstərdiyi qəhrəmanlığa, həmçinin hərbi qulluq vəzifəsini yerinə yetirən zamanı igidliyin və mərdliyin nümayiş etdirilməsinə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən mayor Vüqar Ağayev "Vətən Müharibəsi Qəhrəmanı" adına layiq görülüb, "Vətən uğrunda" və "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edilib.

Şəhidimiz II Fəxri xiyabanda dəfn olunub. Bakı şəhərində yerləşən Qubadlı rayon Xanlıq kənd ümumi orta məktəbinə Vüqar Ağayevin adı verilib, büstü qoyulub.

Ölümü ilə ölümsüzləşən, həyatı qəhrəmanlıq dastanına çevrilən, gənc nəslə örnək olan şəhid mayor Vüqar Ağayevin ailəsi dövlətimiz tərəfindən qayğı ilə əhatə olunub. Ötən il iyunun 26-da - Azərbaycan Respublikasının Silahlı Qüvvələri Günündə İkinci Qarabağ müharibəsi şəhidlərinin ailələrinə yeni mənzillər təqdim olunub. Babək şəhərində yeni yaşayış binasındakı mənzillərdən biri Vətən Müharibəsi Qəhrəmanı Vüqar Ağayevin ailəsinə təqdim edilib. Şəhidin həyat yoldaşı Səbahət Ağayeva onun barəsində qürurla danışır.

Evin divarlarından qəhrəmanın şəkilləri asılıb. Gözüm Səbahət xanımla Vüqarın bir xoşbəxtlik tablosuna sataşır. Həmin an düşünürəm: "Bu xoşbəxtlik tablosuna üstün gələn Vətən sevgisi! Ey Vətən, sən necə də böyük və müqəddəssən, vazkeçilməzsən! Düşmən tapdağında qalmayasan deyə neçə-neçə igidlər canını fəda etdi".

Səbahət xanımla sağollaşıb ayrılıram. O xoşbəxtlik tablosu gözümün önündən getmir. Bu an sanki xəyallarımın dərinliklərindən qulağıma Rəşid Behbudovun "Ey Vətən" mahnısının sədaları gəlir:

*Nəğmə dolu bir ürəyəm*
*Torpağına baş əyərəm,*
*ey Vətən.*
*Meşələrin çətirlidir,*
*gül-çiçəyin ətirlidir!*
*Ey Vətən, ey Vətən!*
*Dağlarına düşən şehdən*
*Çöllərinə əsən mehdən*
*Doya bilmirəm,*
*doya bilmirəm*
*Ey Vətən...*
*Bir anamdan,*
*bir də səndən*
*Bu dünyada, bu dünyada*
*Doya bilmirəm,*
*doya bilmirəm*
*Ey Vətən...*

**Ruhiyyə RƏSULOVA**
**Naxçıvan televiziyasının baş redaktoru**

*Sıra hazırlığı*

# Peşəkarlığa hədd, mükəmməlliyə sərhəd olmur



**Nizam-intizam ordu üçün ən vacib amillərdən biridir. Nizami ordu hərbi nailiyyətləri daha inamla, az itki ilə qazanmağa qadirdir. İntizamsız orduda döyüş hazırlığından, hər hansı bir uğurlu döyüş əməliyyatından söz gedə bilməz.**

Müasir Azərbaycan Ordusunun yaradıcısı ulu öndər Heydər Əliyev "Nizami ordunun döyüş qabiliyyəti günü-gündən yüksəlmelidir. Azərbaycanın nizami ordusu, milli ordusu respublikamızın ərazi bütövlüyünün, torpaqlarının müdafiəsinin və dövlətimizin müstəqilliyinin tam qarantı olmalıdır" demişdir. Ümummilli Liderin siyasi kursunun layiqli davamçısı, dövlət başçısı, Ali Baş Komandan İlham Əliyevin ordu quruculuğu istiqamətində həyata keçirdiyi uğurlu islahatların nəticəsində bu gün müasir Azərbaycan Ordusu regionun ən güclü ordusu kimi formalaşıb. Dəmir intizama və vahid komandanlığa malik olan ordumuz artıq dünyanın ən güclü orduları sırasında da layiqli yer tutmuşdur. Xalqımıza tarixi qələbə sevinci yaşadan ordumuzun yüksək döyüş hazırlığının və qələbələrinin əsasında məhz dəmir intizam dayanır. Nizam-intizam isə sıradan başlanır.

Bu gün Azərbaycan Ordusunun bütün bölmələrində şəxsi heyətin nizam-intizamına xüsusi diqqət ayrılır. Yüksək nizam-intizama nail olmaq üçün vacib şərtlərdən biri sıra hazırlığıdır. Çünki hərbi xidmətə gələn gənclərin hərbi intizamla ilk tanışlıqları sıradan başlayır. Bütün hərəkətlər sıra ilə həyata keçirilir, əmr və tapşırıqlar sırada çatdırılır. Odur ki, sıranın müqəddəsliyi hər bir hərbi qulluqçuya ilk gündən izah olunur.

Sıra - hərbi qulluqçuların, bölmələrin və hissələrin piyada və maşınlarda birgə hərəkəti üçün Nizamnamə ilə müəyyən edilmiş düzülüşüdür. Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Sıra Nizamnaməsində "sıra" sözünün tərifi bu cür verilir. Bu nizamnamə əsasında bölmələrdə hərbi qulluqçular ilə mütəmadi olaraq sıra hazırlığından məşğələlər keçirilir, sıra hərəkətlərinin yerinə yetirilməsi üsulları, vərdişləri mükəmməlləşdirilir. Sıra hazırlığı komandir heyətinin diqqətində olan əsas məsələlərdən biridir. "N" hərbi hissəsində bir daha bunun şahidi olduq.

Hərbi qulluqçular üçün yaradılan sosial-məişət şərait ilə tanış olarkən, sıra meydanında bir qrup əsgərin məşğələ rəhbərinin nəzarəti altında məşq etdiklərini gördüm. Manqa komandiri müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Pərvin Quliyevin "Düzül!" komandasından sonra hər kəs sırada təyin olunan yerini tutdu. Hiss olunurdu ki, əsgərlərimiz hərbi intizama dərindən yiyələniblər. Növbəti komandalar ilə şəxsi heyət silahsız sıra hərəkətləri, əsgəri salamlaşma qaydalarını, sıradan çıxma və sıraya yaxınlaşma, yuxarı rəislərə yaxınlaşma və digər çalışmaları icra edirdilər. Daha sonra əsgərlər asfalt üzərində çəkilən ağ xətlərdə sıra addımları hərəkətlərini məşq edirdilər.

Məşğələ sona çatdıqdan sonra hərbçilərimizlə həmsöhbət oldum. Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Pərvin Quliyev 1999-cu ildə Samux şəhərində anadan olub. Müddətli həqiqi xidmətini başa vurduqdan sonra həyatını hərbi xidmətə bağlamaq fikrinə gələn gəncin ən böyük arzusu torpaqlarımızı azad görmək idi. Bu amala çatmaq məqsədilə o, 2020-ci ilin martından müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi yenidən hərbi xidmətə qayıdır. 2020-ci ilin 27 sentyabrında başlayan Vətən müharibəsində torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə Pərvin də iştirak etdi. Döyüş əməliyyatlarında şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə əsgər Quliyev Pərvin Əhliyyat oğlu Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamı ilə "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edilib.

Pərvin söhbətə "Hərbi qulluqçu bilikli və bacarıqlı olmalıdır. Bunun üçün orduda istər əsgər, istərsə də zabit və gizirlər ilə mütəmadi olaraq dərslər keçirilir" deyərək başladı. "Sıra hazırlığı da nizam-intizamın aşılanması istiqamətində keçirilən önəmli məşğələlərdəndir. Əsgərlərə Sıra Nizamnaməsini mənimsədir, praktiki olaraq silahsız və silahla hərəkət üsullarını məşq etdiririk. Digər fəaliyyətlərdə olduğu kimi, sıra hazırlığı məşğələsinin səmərəli təşkili üçün də şəraitimiz yüksəkdir. Geniş sıra meydanımız var. Bu cür məşğələlər keçirmək əsgərlərimizə xoş, bizə qürurvericidir, kənardan müşayiət edənlər üçün isə gözoxşayan mənzərədir".

Əsgərlər Elvin Ələkbərov, Orxan Abdullayev, Fərid Nəsibov, Talıb Nağıyev, Mehman Abbasov, Kamran Nəzərov, Hüseyn Yusifov və digərləri də yüksək sıra hazırlığının vacibliyini qeyd etdilər. Hərbi xidmətə çağırıldıqları gündən digər biliklərlə yanaşı, nizam-intizamı da mənimsədiklərini bildirdilər. "Peşəkarlığa hədd, mükəmməlliyə sərhəd olmur. Azərbaycan əsgəri hər zaman öz üzərində çalışır. Çünki bizlər rəşadətli, qalib ordunun əsgərləriyik. Bu ada layiq olduğumuzu sübut etmək üçün əlimizdən gələni edir, ruhumuzu Vətən eşqi ilə qidalandırırıq. Fəxr edirik ki, azərbaycanlıyıq və Azərbaycan Ordusunun sıralarında xidmət edirik", - dedilər.

**Leytenant**
**İbrahim MƏMMƏDBƏYOV**
**"Azərbaycan Odusu"**

# "Biz Ermənistanla olan yaxınlaşmanı Azərbaycanla birlikdə inkişaf etdiririk"

Ermənistanın baş naziri Nikol Paşinyanla telefon danışığı apardıq və təbii ki, normallaşma prosesini də müzakirə etdik. Əvvəldən bizim kəskin mövqeyimiz Azərbaycanla bağlı olub. İndi ritorikadan kənar konkret addımlar gözləyirik.

AZƏRTAC xəbər verir ki, bunu "TRT Haber" telekanalının canlı yayımında qonağı olan Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Ermənistanla münasibətlərin normallaşdırılması prosesinə dair sualları cavablandırarkən deyib.

Prezidenti Rəcəb Tayyib Ərdoğan deyib: "Biz tam normallaşmanı hədəfləyirik. Hazırda Türkiyədə 100 mindən çox erməni yaşayır. Biz Azərbaycanla birlikdə Ermənistanla olan yaxınlaşmanı inkişaf etdiririk".

# Kursantlarla səhra çıxışında praktiki məşğələlər keçirilir



Heydər Əliyev adına Hərbi İnstitutun kursantları ilə səhra şəraitində praktiki təlim məşğələləri həyata keçirilir.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, Hərbi institutun təsdiq edilmiş tədris planı və proqramına uyğun olaraq kursantlar sıra, fiziki və atəş hazırlığından müxtəlif normativlər icra edirlər.

Keçirilən məşğələlərdə şəxsi heyətə təhlükəsizlik qaydaları çatdırılır. Atışın şərtləri ilə tanış olduqdan sonra kursantlar təlim sahəsində şərti düşmən hədəflərinin aşkarlanaraq atəşlə məhv edilməsi, silahların döyüşə hazır vəziyyətinə gətirilməsi və onlardan istifadə vərdişlərini təkmilləşdirirlər.

Məşğələlərin sonunda kursantlar əldə etdikləri nəticələrə əsasən qiymətləndiriləcəklər.

# Xəbərlər: hadisələr, faktlar

## Türkiyə kəşfiyyatı "Kendal Erməni" ləqəbli xüsusi təhlükəli terrorçunu məhv edib



Türkiyənin Milli Kəşfiyyat Təşkilatı (MİT) Suriyanın şimalında PKK-YPG terror təşkilatına qarşı daha bir uğurlu əməliyyat keçirib.

Türkiyənin Milli Kəşfiyyat Təşkilatının həyata keçirdiyi xüsusi antiterror əməliyyatı nəticəsində "Kendal Erməni" ləqəbli terrorçu Şahin Tekintanğac məhv edilib.

Bildirilir ki, əvvəllər Ağrı, Qars, Van, Bingöl və Bitlis bölgələrində terrorçuluq fəaliyyəti ilə məşğul olan "Kendal Erməni"nin yerləşdiyi məkan təsbit edilib və o, MİT tərəfindən dəqiq atəşlə zərərsizləşdirilib.

Türkiyəyə qarşı bir sıra ağır terror aktları törədən "Kendal Erməni" PKK-YPG terror təşkilatının Kobani üzrə aparıcı şəxslərindən biri olub.

## Polşa Ukraynaya "PT-91 Twardy" tankları göndərib



Polşa Ukraynaya hərbi yardım çərçivəsində "PT-91 Twardy" tankları göndərib.

Bu barədə Ukrayna Prezident Ofisinin rəhbəri Andrey Yermak teleqram səhifəsində yazıb.

"Polşadan olan "PT-91 Twardy" tankları artıq Ukraynadadır. Dostlarımıza təşəkkürlər edirik", - deyə Yermak əlavə edib. Tankların sayı barədə əlavə məlumat verilməyib.

## İndoneziya və ABŞ-ın birgə təlimlərində 12 ölkədən hərbçilər iştirak edəcəklər



Avqustun 1-14-də Sumatra və Borneo adalarında (Kalimantan) keçiriləcək İndoneziya və ABŞ-ın birgə təlimlərində 12 ölkədən olan 4 mindən çox hərbçi iştirak edəcək.

Kyodo agentliyi xəbər verir ki, 2009-cu ildən keçirilən "Super Garuda Shield" manevrlərində 2 min indoneziyalı və 1100 amerikalı hərbçinin iştirakı gözlənilir. Əvvəllər təlimlərə yalnız quru qoşunlarının nümayəndələri cəlb olunurdu, indi isə onlara Hərbi Hava Qüvvələri, Hərbi Dəniz Qüvvələri və xüsusi təyinatlılar da qoşulacaq.

Manevrlərdə İndoneziya və ABŞ-la yanaşı, Avstraliya, Böyük Britaniya, Cənubi Koreya, Yaponiya və bir sıra digər dövlətlərin də iştirakı gözlənilir. İndoneziya komandanlığının məlumatına görə, təlimlərin məqsədi təhlükəsizliyin təmin edilməsi, təbii fəlakətlərin nəticələrinin aradan qaldırılması və humanitar yardımın göstərilməsi üzrə məsələlərin işlənib hazırlanmasıdır.

Kyodo agentliyi Çinin regionda və xüsusən də Cənub Çin dənizində mövqelərinin güclənməsi fonunda "Super Garuda Shield" təlimlərinin vacibliyini qeyd edir.

## NATO Qara dənizdə hərbi təlimlər keçirib



NATO-ya daxil olan 11 ölkənin hərbi dəniz qüvvələrinin iştirakı ilə Qara dənizdə "Briz 2022" adı altında hərbi təlimlər keçirilib.

Hərbi təlimlərdə 24 hərbi gəmi və yedəkçi kater, 1390 hərbçi iştirak edib.

Təlimlərə NATO komandanlığı ilə yanaşı, Türkiyə, ABŞ, Fransa Bolqarıstan, Albaniya, Belçika, Yunanıstan, İtaliya, Latviya, Polşa və Rumıniyanın hərbi-dəniz qüvvələrinin nümayəndələri cəlb olunublar.

Qeyd edək ki, bu, Rusiyanın Ukraynada başlatdığı hərbi əməliyyatlardan sonra NATO-nun Qara dənizdə ilk hərbi təlimidir.

**AZƏRTAC-ın materialları əsasında**

# Şəxsi heyət əmrləri məsuliyyətlə yerinə yetirirdi

Vətən müharibəsi Zəfərlə başa çatdı. Bu qələbəni xalqın Ali Baş Komandana inamı, sərkərdəlik məharəti, ordunun şəxsi heyətinin döyüş və mənəvi-psixoloji hazırlığı, ordu-xalq münasibətlərinin olduqca həssas səviyyəyə çatması, xalqın əsgərləşməsi təmin etdi.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Vətən müharibəsində xalqa müraciətində dedi: "Biz nəinki XXI əsrin müharibəsini nümayiş etdirmişik, biz dünyada heç vaxt olmayan Qələbəni qazanmışıq. Çətin relyef şəraitində düşmənin bir neçə istehkamının qarşısında biz peşəkarlıq, məharət, güc, hərbi elm qoyduq və düşməni torpaqlarımızdan qovduq".

Vətən müharibəsində bizim hərbi hissə də böyük əzmlə iştirak etdi. Ordumuzu döyüş sursatları ilə, yanacaqla və s. fasiləsiz təmin edir, həmçinin mövqelərimizə ağır döyüş texnikalarını da çatdırırdıq. Bütün şəxsi heyət əmrləri vaxtında və məsuliyyətlə yerinə yetirirdi.

Bəzən hər hansısa döyüş texnikamıza döyüşlərdən sonra təmir işlərinə ehtiyac duyulurdu. Bu cür vəziyyətlərdə onları döyüşün içindən çıxarmaq, təmir edib yenidən döyüşlərə çatdırmaq vəzifəsini hərbi hissənin təxliyə qrupları yerinə yetirirdilər. Texniki kəşfiyyat qrupu düşmənin döyüşə yararlı döyüş texnikalarını müəyyənləşdirir, çeşidləmədən sonra yararsızlar arxa cəbhəyə təxliyə edilirdi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə yaradılmış "Hərbi Qənimətlər Parkı"nın eksponatlarının çoxunu döyüş meydanından bizim hərbi hissənin hərbi qulluqçuları çıxarıb....

Düşmənin vurulmuş, lakin hərəkətə gətirilməsi mümkün olan tankını döyüşün içində idarə edərək çıxarmaq risk tələb edirdi. Çatdırılma hərəkəti, əsasən, gecələr olduğuna görə düşmənin diqqətini çox çəkmirdi. Digər tərəfdən sürücülərimizin yüksək peşəkarlığı da xeyli dərəcədə əhəmiyyətli idi. Tankçılarımız düşmənin neçə-neçə hərbi texnikasını bu cür vəziyyətdə çıxarda bildi.

Hərbi hissəmizlə bağlı bir hadisəni də heç zaman unutmayacağam. Yuxarı komandanlıqdan əmr verildi ki, mövqelərimizin birində düşmənin qalan 5 tankını çıxarmaq lazımdır. Onların döyüşə yararlı olub-olmadığı bəlli deyildi. Amma bütün bunlara baxmayaraq biz verilən tapşırığı təhlükəsiz qaydada icra etməliydik.

Tanklar olan əraziyə daxil olduq. İlk öncə ətraf diqqətlə yoxlanıldı. Düşmən tanklarının yan-yörəsinə sürpriz minalar yerləşdirə bilərdi. Bir müddət sonra məlum oldu ki, düşmən ordumuzun gücü qarşısında tab gətirmədiyi üçün onları atıb qaçıb. İşlək vəziyyətdə olan tanklarla Cəbrayılın Şükürbəyli kəndi istiqamətində hərəkət etdik. Xeyli uzaqlaşmışdıq ki, bizə qarşıda 100-dən çox erməninin olduğu və mövqeləndikləri məlumatı çatdırıldı. Bundan sonra tankları dərəyə çəkib komandanlıqla əlaqə yaratdıq.

Əmrə görə hərəkəti Şeyvə istiqamətində davam etdirməli idik. Hava qaralırdı. Gecə, əraziyə bələd olmama, düşmən əhatəsində əmri icra etmənin həyəcanı da vardı. Buna baxmayaraq götürdüyümüz tankları döyüşən ordumuza vaxtında çatdırma məsuliyyətini də başa düşürdük.

Dərədə körpü vardı. Hansı duyumun təsiriylə, körpüdən keçmədik. Bir qədər aralıdan keçid üçün əlverişli yer seçib hərəkətimizi davam etdirdik. Çox vaxt keçmədi ki, körpü partladıldı. Biz əmri sonacan yerinə yetirə bildik. Noyabrın 3-də döyüş gedə-gedə tankları döyüşən ordumuza çatdıra bildik...

Döyüş davam edirdi. Ordumuz düşmənin tankları ilə özünün piyadalarını məhv edir, digər hərbi texnikalarını sıradan çıxarırdı. O istiqamətdə qazanılan mövqe qələbələrinə görə hərbi hissəmizin cəsur hərbi qulluqçularına təşəkkürümü bildirdim.

**Polkovnik-leytenant**
**Vasif ƏLİRZAYEV**
**"N" hərbi hissəsi**

# "Sürücü gözlənilməz vəziyyətlərdə tez reaksiya verməyi bacarmalıdır"

Hər tərəfində səliqə-sahman hökm sürən nəzarət-buraxılış məntəqəsindən böyük qürurla ərazisinə daxil olduğumuz "N" hərbi hissəsinin şəxsi heyəti də Vətən müharibəsində üzərinə düşən bütün tapşırıqlarının öhdəsindən bacarıqla gəlib. Elə buna görə də qarşılaşdığım bütün hərbçilərin üzündən sevinc və fərəh yağırdı.



İlk həmsöhbətim zabit Aqil İsmayılov da Vətən müharibəsində iştirak edib, yurdumuzun azadlığı uğrunda vuruşub. Xocavənddən başlanan döyüş yolu Şuşada zəfərlə başa çatıb. Söhbət zamanı üz-gözündən igidlik yağan zabit dedi ki, hərbi hissənin şəxsi heyəti Vətən müharibəsində böyük hünər və qəhrəmanlıq göstərib. Döyüşlər zamanı hər kəs üzərinə düşən döyüş tapşırığını cəsarətlə yerinə yetirib.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kiçik çavuş İlqar Əliyevin Vətən müharibəsində keçdiyi həyat və döyüş yoluna qısa nəzər saldıq. Öyrəndik ki, kiçik çavuş İlqar Əliyev Qazax rayonunun cəbhə xəttində yerləşən Fərəhli kəndində anadan olub. O, kiçik yaşlarından güllə səsləri eşidə-eşidə böyüyüb. Orta təhsilini başa vurduqdan sonra Qazax Sosial-İqtisad Kollecinə qəbul olub. 2007-2008-ci illərdə cəbhə bölgəsində yerləşən "N" hərbi hissəsində xidmət edib. Vətən qarşısındakı övladlıq borcunu şərəflə yerinə yetirdikdən sonra orduya olan sevgi, istək onu hərbi həyata bağlayıb. Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində kursu uğurla bitirən İlqar Əliyev "N" hərbi hissəsində sürücü kimi xidmətə başlayıb. Elə ilk günlərdən komandanlığın verdiyi bütün tapşırıqları peşəkarlıqla yerinə yetirib.

Erməni qəsbkarlarının təxribatı nəticəsində komandanlığın müvafiq döyüş tapşırıqlarını yerinə yetirərək cəbhə bölgəsinə yollanıb. Həmin gərgin günlərdən söz açan kiçik çavuş İlqar Əliyev dedi:

- Yurdumuzun illərdən bəri erməni işğalında qalması bir vətəndaş, bir hərbçi kimi məni çox üzürdü. Amma gələcək günlərin birində doğma ocaqlarımızı qəsbkarlardan azad edəcəymizə əmin idim. Çünki ordumuz gündən-günə güclənirdi, zabit və əsgərlərimizin peşəkarlığı artırdı. Aprel döyüşləri ordumuzun gücünü, qüdrətini bir daha dünyaya göstərdi. 27 sentyabr 2020-ci ildə Vətən müharibəsi başlayanda işğalda qalmış torpaqlarımızın azad olunacağına ümidlərimiz xeyli artdı. Bölüyümüz komandanlıqdan müvafiq tapşırıqlar aldıqdan sonra cəbhə bölgəsinə yola düşdük. Mən də sürücü kimi sükanın arxasındaydım. Təhlükəli yollardan keçərək döyüşən ordu üçün zəruri ləvazimatlar aparırdım. Ertəsi gün artıq ön xətdə - Füzuli bölgəsində idik. Yurdumuzun azadlığı uğrunda gərgin döyüşlər gedirdi. Biz də üzərimizə düşən tapşırıqları yerinə yetirərək, vuruşan ordunu zəruri əşya və avadanlıqlarla vaxtlı-vaxtında təmin edirdik. Sürücü gözlənilməz vəziyyətlərdə tez reaksiya verməyi və qərar qəbul edərək düşdüyü vəziyyətdən çıxmağı bacarmalıdır. Döyüşlər vaxtı Füzuli istiqamətində tapşırığı icra edərkən düşmən atəşinə tuş gəldik. Xoşbəxtlikdən yaxınlığımıza düşən mərmi açılmadı. Nə qədər çətin olsa da, əmri icra edib təhlükəli ərazidən uzaqlaşdıq. Komandanlığın əmrinə əsasən Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı və Laçın rayonlarında oldum. 44 gündən sonra ordumuz düşməni məğlub edərək qələbə çaldı. Buna hamımız sevindik. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamı ilə "Laçının azad olunmasına görə" medalına layiq görüldüm. Müharibə veteranıyam.

Qürur duyuram ki, yurdumuzun erməni işğalçılarından azad olunmasında mənim də əməyim var.

Müharibənin ağrı-acılarını görmüş, zəruri tapşırıqları yerinə yetirmiş kiçik çavuş İlqar Əliyevlə yaxınları, doğmaları və ən əsası yeganə övladı Ömər də fəxr edirlər. İnanırıq ki, gələcəkdə Ömər də gələcəkdə atasının qəhrəmanlıq yolunun işıqlarını daha da gur yandıracaq.

**Vahid MƏHƏRRƏMOV**
**"Azərbaycan Ordusu"**

# İdman

## MMA döyüşçümüz Tofiq Musayevin "Bellator"da debütü uğurlu alınıb




Azərbaycanın MMA döyüşçüsü Tofiq Musayev dünyanın ən məşhur turnirlərindən biri olan "Bellator"da debüt edib.

ABŞ-ın paytaxtı Vaşinqtonda rinqə çıxan idmançımızın rəqibi yerli MMA döyüşçüsü Sidney Autlou olub.

T.Musayev ilk raunddaca məşhur döyüşçünü nokauta göndərməyi bacarıb. Görüş cəmi 27 saniyə çəkib.

## Şahmatçımız Məhəmməd Muradlı beynəlxalq turnirin qalibi olub



Azərbaycan şahmatçısı Məhəmməd Muradlı İsveçrənin Bill şəhərində təşkil olunan beynəlxalq şahmat festivalının qalibi olub.

Sonuncu turda yarışın iki lideri - həmyerlimiz Məhəmməd Muradlı və FIDE təmsilçisi Kiril Alekseyenko qarşılaşıb. Partiya heç-heçə ilə başa çatıb. Yekunda 7 xal qazanan şahmatçımız əlavə göstəricilərə əsasən, yarışın qalibi adını qazanıb. Rəqibi Kiril Alekseyenko isə ikinci yerlə kifayətlənib.

Qeyd edək ki, festivalda ümumilikdə 114 şahmatçı iştirak edib.

## Cüdoçumuz Avropa kuboku yarışında gümüş medal qazanıb




Çexiyanın paytaxtı Praqa şəhərində gənclər arasında cüdo üzrə Avropa kuboku turniri keçirilir.

66 kiloqram çəki dərəcəsində Azərbaycanı təmsil edən gənclərdən ibarət yığma komandamızın üzvü Samir Piriyev yarışda uğurla çıxış edərək finala vəsiqə qazanıb. Qızıl medal uğrunda israilli idmançı Eran Fiksə məğlub olan cüdoçumuz gümüş medala sahib olub.

## Yeniyetmə cüdoçularımız dünya çempionatına hazırlığı davam etdirirlər

Cüdoçularımız Sarayevoda təşkil olunacaq yeniyetmələr arasında dünya çempionatına hazırlığı davam etdirirlər.

İdmançılarımız Şamaxıda təlim-məşq toplanışı keçirlər. Şamaxı Olimpiya İdman Kompleksində təşkil edilən təlim-məşq toplanışında yeniyetmələrdən ibarət milli komandamızın 32 cüdoçusu iştirak edir.

**AZƏRTAC-ın materialları əsasında**

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu çavuş Ağasəlli Samirə Rövşən qızına məxsus AD № 0000363 nömrəli şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

## Qəzetimizin 56-cı sayında dərc olunan çaynvordun cavabları

1. Hücum; 2. Mazğal; 3. Lazaret; 4. Transey; 5. Yalquzaq; 6. Qərargah; 7. Heyət; 8. Tank; 9. Kalibr; 10. Raket; 11. Trap; 12. Poliqon; 13. Naryad; 14. Daraq; 15. Qobur; 16. Radiolokasiya; 17. Artilleriya; 18. Alay.

**Baş redaktorun müavini**
kapitan
Məhəmməd NƏSİRLİ

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
baş leytenant
Günay TAĞIYEVA

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi Nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 756
Nüsxə 4651